# ÇİNGİZ AYTMATOVUN ƏDƏBİ QƏHRƏMANLARI

Fərrux MƏMMƏDOV*

**Xülasə:** Çingiz Aytmatovun yaradıcılığı qırğız və dünya ədəbiyyatında əhəmiyyətli yer tutur. Yazıçı bədii yaracıdılığa 1958-ci ildə "Cəmilə" povesti ilə başlayıb. O, XX əsrin 60-cı illərində bir-birinin ardınca bir neçə povest yazmışdır.

Yazıçının povestlərindəki ədəbi qəhrəmanlar: Cəmilə, Daniyar, Duyşen, Altınay Süleymanova, Tolqanay, Aliman, Asel, İlyas, Tanabay, Çoro və digərləri mürəkkəb və ziddiyyətli obrazlardır. Digər yazıçıların ədəbi qəhrəmanlarından əhəmiyyətli dərəcədə seçilirlər. Bir faktı vurğulamaq yerinə düşər ki, onun ədəbi qəhrəmanları yazıçı ilə bərabər əsərlərinin ideya-bədii xüsusiyyətlərinin müəyyənləşməsində əhəmiyyətli rol oynayırlar.

1970-1980-ci illərdə nəşr olunan "Ağ gəmi" povestində, "Gün var əsrə bərabər", "Qiyamət" romanlarının ədəbi qəhrəmanlarının taleyində faciəvi motivlər, məqamlar üstünlük təşkil edir.

***Açar Sözlər:*** *Ç. Aytmatov, Qəhrəman, Faciəvilik, Povest, Roman*

**Literary Heroes of Genghıs Aitmatov**

**Summary:** Chingiz Aytmatov's work occupies an important place in Kyrgyz and world literature. The writer started his artistic career in 1958 with the story "Jamila". He wrote several stories one after the other in the 60s of the 20th century.

Literary heroes in the writer's stories: Jamila, Daniyar, Duyshen, Altynay Suleymanova, Tolganay, Aliman, Asel, Ilyas, Tanabay, Choro and others are complex and contradictory characters. They stand out significantly from the literary heroes of other writers. It is worth emphasizing a fact that his literary heroes play an important role in determining the idea-artistic characteristics of his works along with the writer.

In the story "White Ship" published in 1970-1980, the fate of the literary heroes of the novels "The Day Lasts More Than a Hundred Years," and "Doomsday" are dominated by tragic motives and events.

***Keywords:*** *Ch. Aitmatov, Hero, Tragedy, Story, Novel*

Danılmaz həqiqətdir ki, Çingiz Aytmatov dünya ədəbiyyatı və mədəniyyəti xəzinəsinə dəyərli töhfələr vermişdir. XX əsrin görkəmli elm, mədəniyyət və ictimai xadimləri yazıçının yaradıcılığına yüksək qiymət vermişlər. Çingiz Aytmatov qırğız xalıqını, qırğız xalqı Çingiz Aytmatovu şöhrətləndirmiş, dünyaya tanıtdırmışdır. Qırğızıstanın ucaqar Şəkər avulundan başlanan yol onu şöhrətin, insanlığın, millikliklə bəşəriliyin vəhdətinin zirvəsində əbədi olaraq qərara tutmağa, "məcbur etmişdir".

"Çingiz Aytmatov əsərlərində Zamanın, İnsanın və Təbiətin vəhdətini yaratmışdır " (4,161)

XX əsrin 60-80-ci illəri yazıçının yaradıcılığının ən məhsuldar dövrü kimi səciyyələndirilir. Həmin illəri "Aytmatov illəri" kimi dəyərləndirsək, qətiyyən səhv etmərik...Yazıçının 1958-ci ildə "Novıy mir" jurnalında dərc olunan "Cəmilə" povesti ədəbi tənqid tərəfindən birmənalı qarşılanmadı. "Cəmilə" povestində əsas hadisələr müharibədən min kilometrlərlə uzaqda yerləşən qırğız avulunda baş verir. Çingiz Aytmatov "Cəmilə" povestində konkret olaraq müharibəni, döyüş səhnələrini təsvir etməmişdir. Arxa cəbhədəki qadınlar müharibəyə getmiş ərlərini, qardaşlarını əvəz etmiş, ən ağır işləri yerinə yetirirdilər. Cəmilə də digərləri kimi auldan 30-40 kilometr uzaq məsafədə yerləşən stansiyaya taxıl daşıyırdı. Müharibəyə getmiş həyat yoldaşı Sadığın yolunu gözləyirdi. Bir vaxtlar aulu tərk etmiş Daniyarın qəfil gəlişi vəziyyəti kökündən dəyişir. Daniyar müharibədən şikəst qayıtmışdı. Qaradinməzliyi, kədərli, qəmli olması ilə digərlərindən seçilirdi. Ümumiyyətlə, Çingiz Aytmatovun ədəbi qəhrəmanları qəribəlikləri, qeyri-adilikləri ilə fərqlənirdilər. Onlar müstəqildirlər, fərqli qərarlar qəbul etməyə üstünlük verirlər. Daniyarla Cəmilə kimi... Çoxları onları ittiham etsə də, yazıçının fikri tamamilə fərqlidir. Povestin "Cəmilə" adlandırılması təsadüfi deyildir. İlk əsərlərdən başlayaraq Çingiz Aytmatovun ədəbi qəhrəmanları nə qədər çətin, təhlükəli, faciəvi olsa da, həqiqətin gözünün içinə dik baxmağı bacarırlar... Fikrimizcə, yazıçının əsərlərinin uğur qazanmasının əsas səbəbi onun bədii və

---

* Dosent, Filologiya Üzrə Fəlsəfə Doktoru, Bakı Slavyan Universiteti.

DOI :10.30546/100981.2024.0191

həyat həqiqətlərinə sadiq qalması ilə bağlıdır. Tənqidçi Belinskinin sözləri ilə desək, "ən yaxşı həqiqət bədii həqiqətdir".

"Qırmızı yaylıqlı qovağım mənim" povestində Asellə İlyasın sevgisini müqəddəs sevgi, məhəbbət, qarşılıqlı hörmət adlandırmaq düzgün olardı. Onlar ideal və xoşbəxt ailə modelinin bir azddımlığında, lap yaxınlığında dayanmışdılar. İlk baxışdan heç kim onlara mane ola bilməzdi. Asel valideynlərindən, yaxınlarından, doğmalarından əl çəkərək həqiqi sevgisinin, ilk məhəbbətinin arxasınca gəlmişdir. Asel hər gün səbrsizliklə həyat yoldaşı İlyasın işdən qayıtmasını gözləyirdi. Tezliklə oğlanları Səməd dünyaya gəldi. İlk zamanlarda bir-birlərini sözsüz başa düşürdülər. Görəsən, həqiqi xöşbəxtlik üçün daha nə lazımdır? İlyas çətinliklərlə, mübarizələrlə tapdığı, qazandığı ailə xoşbəxtliyini, səadətini bir andaca və həmişəlik itirdi. Sonda İlyasın etirafı heç nəyi dəyişmir.

"Aradan bir müddət keçər, evlənərəm, evim, ailəm, uşaqlarım, xülasə, başqa insanlar kimi, hər şeyim olar. Dostlar da, yoldaşlar da tapılır. Yalnız mənim bir şeyim olmayacaq, biryolluq, əbədi olaraq itirdiyim adamım olmayacaqdır... Mən ömrümün sonuna qədər, son nəfəsimə qədər Aseli və aramızda olan bütün gözəl şeyləri yadda saxlayacağam. Əlvida, Asel! Əlvida, qırmızı yaylıqlı qovağım mənim! Əlvida, sevgilim. Bəxtiyar ol!"...(1,160).

"Köşək gözü" əsərində Kamal işıqlı, romantik arzularla, duyğularla yaşayan gəncdir. Vətən torpağının hər qarışı onun üçün çox əzizdir. Ucsuz-bucaqsız, illərlə insan ayağı dəyməyən Anarxay çöllərini abadlaşdırmaq, insanların yaşayışı üçün cənnətə çevirmək onun əsas məqsədidir. Bütün bu ideyaları onun beyninə orta məktəbdəki tarix müəllimi Aldiyarov yeritmişdir. Ona görə dətəhsilini yarımçıq qoyub çoxlarının vəhşi hesab etdiyi Anarxay düzlərini fəth etməyə gəlmişdir. Kamal kimi vətənpərvər gənclərin sayəsində Anarxay düzü cənnətə dönəcəkdir. Kamal ilk dəfə Anarxay düzündə həyatın sərt üzünü gördü. Başa düşdü ki, həyatda xeyirxah, vicdanlı, əməksevər, olmaq, yaşamaq, xoşbəxt olmaq, xoşbəxt olmaq üçün kifayətdeyildir. Şər qüvvələrə qarşı barışmaq, mübarizə aparmaq və qələbə çalmaq lazımdır. Sadə, əməkçi insanların heç də hamısı vicdan mücəssəməsi, həqiqət carçısı deyillər. Traktorçu Abakir yaxşı işləməyi bacarırdı. Ancaq qəddarlığı, paxıllığı, xudpəsəndliyi, acgözlüyü ilə digərlərindən seçilirdi. Abakiri yaxından tanımağa başlayan Kamal vaxt ötdükcə daha çox təəccüblənirdi ki, əməksevər, yaxşı işləməyi bacaran insanda bu qədər mənfi qeyri-insani xüsusiyyətlər hardandır? Abakir artıq Kamalı tanıyırdı. Savadlı, bilikli, məlumatlı olduğuna, müqavimət göstərdiyinə görə ona dərindən nifrət edirdi, kin bəsləyirdi. İlk vaxtlarda aciz, gücsüz, bacarıqsız hesab etdiyi, həqarətlə, istehza ilə "akademik" çağırdığı kamala qalib gəlməyin mümkünsüzlüyünü, çətinliyi başa düşürdü. Birlikdə torpağı şumladıqları zaman təsadüf nəticəsində tapdıqları dəmir parçasını görəndə özünü itirdi. Rəngi dəyişdi, dili topuq vurmağa başladı. Dəmir parçasını qızıl külçəsi hesab etdi. Heç kimlə, hətta sevgilisi Xədicə ilə bölüşmək istəmədi. Xədicəni gözü yaşlı qoyaraq qaçdı. Kamal düzgün olaraq Abakiri döyüş meydanından qaçan fərariyə bənzətdi.Sonralar məlum oldu ki, Abakirin tapdığı qızıl külçə deyil, adicə dəmir parçasıymış...

Çingiz Aytmatovun "Ana tarla" əsəri faciələrin faciəsi, başqa sözlə desək, faciələr toplusudur. "Ana tarla" povestinin əsas surətləri Tolqonay və Suvankuldur. Onlar gənc yaşlarından ailə qurmuşdular. Onların birgə xoşbəxtliyinə Göylər, ilk növbədə isə Ay şahidlik etmişdi. Bir-birinin ardınca üç oğulları dünyaya gəlmişdi. Qasım, Caynaq və Masalbek. Suvankul briqadir vəzifəsində çalışır, oğlanları da oxuyur, işləyir, layiqli övlad kimi böyüyürdülər. Ailə sözün həqiqi mənasında xoşbəxtliyin zirvəsində möhkəm qərar tutmuşdu. Onları zirvədən endirməyə,dağıtmağa, pərən-pərən salmağa adına tale, qismət, qəzavü-qədər deyilən varlıq qadirdi. Həmin varlıq müharibə oldu. Çingiz Aytmatovun qənaətinə görə müharibə insanlığa və bəşəriyyətə qarşı yönəlmiş ən böyük və bağışlanılması mümkün olmayan cinayətdir. Müharibənin başlaması xəbərini qəflətən eşitdilər. Bir anın içərisində hər şey dəyişdi. Sanki insanların həyatı iki yerə parçalandı: müharibəyə qədərki və müharibədən sonrakı. Əvvəlcə Suvankul, sonra isə oğlanları cəhbəyə yollandılar. Tolqonay Suvankulun

yerinə briqadir işləməyə məcbur oldu. Bəzi məqamlarda ümumi işin naminə sərt tədbirlər görməli oldu. İnsanlardan ovuc-ovuc yığdığı taxıl cəbhədən qaçmış Çeyşengül tərəfindən oğurlandı. Həyat yoldaşı, oğlanları cəbhədə həlak oldurlar. Müharibədən əvvəl böyük oğlu Qasım Aliman adlı qızla ailə qurmuşdu. Bir-birlərini dəlicəsinə sevirdilər. Müharibədə doğmalarını itirmiş Tolqonay sevimli gəlini Alimanın xəyanətinin və faciəvi ölümünün şahidi oldu. Həyatda Tolqonayın başına gəlməyən faciələr qalmadı. Sonda Tolqonay torpaqla üz-üzə qaldı. Dərdlərini, başına gələnləri Torpağa danışdı. Tolqonay həyat yoldaşını, üç oğlunu itirmişdi. Torpaq isə minləri, milyonları... Torpaq şumlanmadığı, neçə illərdir ki, bar vermədiyi, əkilmədiyi üçün ağlayırdı. Tolqonay isə həyat yoldaşına, oğlanlarına görə...Görəsən, hansı daha çox əzab çəkirdi?. Fikrimizcə, hər ikisi. Onları taleyin ağırlığı, dərdin çəkilməzliyi birləşdirmişdi və mətinləşdirmişdi...

"Ana tarla" əsərinidə müharibə dövründə arxa cəbhə insanlarının qəhramanlığı, fədakarlığı, faciəsi ön plana çəkilmişdir. Povestin əsas baş qəhrəmanları Suvankul və onun həyat yoldaşı Tolqovuydır. Onlar sadə əmək adamlarıdır. Ancaq necə də xoşbəxtdirlər. Əsərdə XX əsrin 20-40-cı illərində ucqar qırğız aulunda baş verən hadisələrdən bəhs olunur. Maddi cəhətdən çoxlu problemlər mövcuddur. İnsanların üzündən sevinc, xoşbəxtlik nidaları, əlamətləri əskik olmur. Kəndə ilk traktorların gətirilməsi, nisbətən yaşlı insanların gecələr savad kurslarında oxumaq, yazmaq öyrənmələri də toy-bayram kimi qarşılanırdı. Hiyləgərlik, paxıllıq, pislik məhfumları sanki insanların leksikonundan silinmişdi, keçmiş xatirələrdə, yaddaşlarda qalmışdı. Suvankulla Tolqonay Qasım, Caynaq, Masalbek adlı üç övlad böyüdüb başa çatdırmışdılar. Demək olar ki,ideal ailə modeli yaratmışdılar. Bəlkə də özləri bilmədən, hiss etmədən, düşünmədən xoşbəxtliyin zirvəsində qərar tutmuşdular. Nədənsə,tam, bütöv xoşbəxtlik insanlara qismət olmur. Əlbəttə, yuxarıda göstərdiyimiz ailə xoşbəxtliyinin modeli "Ana tarla" povestində təsvir olunan məqamları özündə ehtiva edir. Axı, Tolqonayla Suvankulun ailəsi xoşbəxt ola bilərdilər! Ancaq qəflətən başlanan müharibə xəbəri ailənin gələcək haqqındakı bütün arzularını, ilk növbədə isə xoşbəxtliyi, sevincli, qayğılı xoş günləri darmadağın etdi. Əvvəlcə Suvankul, sonra isə üç oğlu cəbhəyə yollandı. Tolqonay həyat yoldaşı Suvanqulun işini davam etdirdi. Briqadirlik etməyə başladı. Onsuz da kənddə işçi qüvvəsi qalmamışdı. Müharibədən əvvəl əsasən kişilərin yerinə yetirdikləri işlər indi qocaların, qadınların, uşaqların öhdəsində qalmışdı. Tolqonay istəmədən, məcburi şəkildə sərt tədbirlər gördü. Bəzən yazda taxıl əkmək, insanları acından ölməyə qoymamaq üçün əvvəlcədən toxumluq buğdanı ovuc-ovuc yığdırdı. Müharibənin özünün heç kimlə hesablaşmayan, "məsləhətləşməyən" sərt qanunları vardır. Bu baxımdan müharibə dövründə başqa cür hərəkət etmək, davranmaq mümkün deyildi...Tolqonayla Suvankul müharibədən az əvvəl böyük oğulları Qasımı Aliman adlı qızla evləndirmişdilər. Alimanla Qasım bir-birlərini dəlicəsinə sevirdilər. Bir dəqiqə ayrı dura bilmirdilər. Tolqonay müharibədə üç oğlunu və həyat yoldaşını itirdi.Polqonay ağır, çəkilməz dərdini Suvankulla onun xoşbəxt anlarına şahidlik edən Torpağa, Aya danışırdı. Çingiz Aytmatovun qənaətinə görə müharibəni başlayanlar, qızışdıranlar ən böyük nifrətə, cəzaya layiqdirlər. Müharibə ilk növbədə Təbiətə, Anaya, Torpağa qarşı yönəldilmiş və bağışlanılası mümkün olmayan bəşəri cinayətdir... "Povestin sonunda tarla Tolqonayın mərdliyi və dözümü qarşısında başəyir. Sən hamıdan yüksəkdəsən, müdriksən. İnsansan! –söyləyir (5,196)".

"İlk müəllim" əsərində Düyşən insanlığın xeyirxahlığın nə demək olduğunu əyani şəkildə göstərdi.Uçurumun kənarında olan, rüsvay edilmiş balaca, məsum Altınaydan, çoxlarının fəxr etdiyi,Qırğızıstanda fəlsəfə üzrə ilk akademik, şanlı-şöhrətli Altınay Süleymanova yetişdirən məhz Döyşən oldu. Düyşenin kimliyini, varlığını, fədakarlığını çoxları unutmuşdu, yaddan çıxarmışdı. Ancaq, Altınay Sülyemanova yox. Müharibədən sonra Düyşəni çox axtarmışdı. Sanki Düyşen yerli-dibli yoxa çıxmışdı. Elə bil bu dünyada Düyşən adlı adam yaşamamışdı. Ondan soraq verən yox idi. Altınay Süleymanova inamını itirməmişdi. Böyük Müəllimi, Böyük İnsanı tapacağı anın, günü ümidi ilə yaşayırdı. Uşaq

yaşlarında aulu tərk edən Altınay Süleymanova and içmişdi ki, bir də əmisinin və bibisinin yaşadığı kəndə üz tutmayacaqdır, ayaq basmayacaqdır. Həmişə şəhərə gələn həmyerlilərindən hal-əhval tutardı. Nə vaxtsa kəndə gəlmək təklifinə isə qəribə tərzdə gülümsəməklə cavab verərdi. Nəhayət, həmkəndlilərinin təkidli xahişlərindən sonra təzə tikilmiş məktəbin açılışına gəldi. İllərlə axtardığı,görmədiyi, tapa bilmədiyi müəllиminə burada rast gələcəyini ağlına belə gətirmirdi. Böyük təntənə ilə qarşılandı. Hamı onu görmək, yaxınlaşmaq, əlini sıxmaq istəyirdi. Altınay Süleymanova Düyşəni görə bilmədi. Məclisdəkilərdən ölkənin hər yerindən göndərilən təbrik məktublarını çatdırmağa tələsənin Döyşen olduğunu öyrəndi. Özün əgələ bilmədi. Məktəbin açılışındakı "hörmətli insanların, qonaqların" Düyşənin ünvanına söylədikləri "məktubu paylayandan sonra sonra qoy getsin qocalarla otursun" sözlərini sinirə bilmədi. Deyilənləri özü, ilk növbədə isə Düyşən üçün təhqir kimi qəbul etdi. Doğrudanmı insanlar bu qədər unutqan olmuşdular? Altunay Sülyemanova həmkəndlilərinin təkidli xahişlərinə baxmayaraq təcili surətdə gecə qatarı ilə aulu tərk etdi. Şəhərdə birtəhər özünə gəldi. Var gücünü topladı. Altınay Sülyemanova hələ də özünü ilk müəlliminin qarşısında günahkar hesab edirdi. Altınay Sülyemanova şəhərdə yaşayan həmkəndlisinə rəssama məktub yazdı. Heç nəyi fədakar insan olduğunu gizlətməməyi, Döyşənin necə böyük insan olduğunu bildir. Yeni məktəbə Düyşənin adının verilməsi təklifini müdafiə etməyi ondan xahiş etdi. Bu Altınay Süleymanovanın Böyük İnsan, Böyük Müəllim qarşısında etməli olduğu vətəndaşlıq, insanlıq, vicdan borcu idi.

Çingiz Aytmatovun "Erkən gələn durnalar" povesti müharibə dövründə arxa cəbhədəki məktəb uşaqlarının, gənc nəslin qəhrəmanlığından, fədakarlığından bəhs edir. "Erkən gələn durnalar" əsəri müəyyən mənada "Köşək gözü" povestinin davamıdır. "Köşək gözü" əsərində Kamal Amurxay düzünü təkbaşına fəth etməyə çalışır və sonda çətinliklə də olsa məqsədinə nail olur. "Erkən gələn durnalar" povestində baş qəhrəman Sultanmurad və məktəb yoldaşları ilə birlikdə cəbhənin ehtiyaclarını ödəmək üçün vaxtından əvvəl əmək cəbhəsinə atılırlar. Fikrimizcə, "Erkən gələn durnalar" povestində realizmin və romantizmin xüsusiyyətləri vəhdətdə verilmişdir. "Çörək müqəddəsdir" deyib atalar-deyib atalar.Taxıl əkiləcək yerlərin şumlanılması zamanı durnaların vxtından əvvəl, erkən gəlməsi yaxşı əlamətdir, rəmzi məna daşıyır. Torpağın bol məhsul verəcəyinə işarədir. Sultanmuradın cəbhəyə getmiş atasının sevimli atının - Çabdarın ovçu quldurlar tərəfindən vurulması, öldürülməsi atasının müharibədən sağ-salamat qayıtmaması kimi qəbul edilməlidir, anlamına gəlməlidir...

Yazıçının "Dəniz kənarıyla qaçan Alabaş" əsərində su ilə qurunun,dənizlə torpağın əbədi mübarizəsindən bəhs olunur. Dünya yaranandan onların əbədi mübarizəsi davam edir, bir an belə səngimir. Hələlik qalib də məlum deyildir. Əsər qədim nivx əfsanəsi əsasında yazılsa da, müasirliklə daha çox bağlıdır. Ana balıq qəbiləsinin üç nəfər nisbətən yaşlı və bir nəfər cavan sakini balıq ovuna çıxırlar. Onların heç birinin ağlına gəlmədi ki, bu sonuncu səfərdir. Hərçənd ki, bundan da təhlükəli havalarda səfərə çıxmışdılar. Atkiçx (ata) Orqan, Saqqal Əmrain və axi (qohum) Mılğun həyatları bahasına olsa belə, gələcək naminə, Ana balıq qəbiləsində yaşayan insanların kökünün, nəslinin kəsilməməsi üçün gənc Oğlanı-Kiriski xilas edirlər. Ən başlıcası və əsası isə tərəddüd etmədən...Kirisk yaşamalı, onu xilas edənləri unutmamalı, olub keçənləri, nəslin adət-ənənələrini, qanun-qaydalarını yadda saxlamalı və gələcək nəsillərə çatdırmalıydı. Əminik ki, üç nəfərin onu necə xilas etmələrinin və könüllü şəkildə həyatla vidalaşmalarının şahidi olan Kirisk heç vaxt heç nəyi unutmayacaqdır...

"Əlvida Gülsari" povesti Çingiz Aytmatovun roman janrına yaxınlaşmağa başladığının bariz nümunəsidir. Qeyd etmək yerinə düşər ki, yazıçının XX əsrin 60-cı illərində yazdığı povestlər ideya-məzmun xüsusiyyətlərinə görə heç də romanlardan geri qalmırlar, əhəmiyyətli dərəcədə fərqlənmirlər. "Əlvida Gülsari" povestində sosial, iqtisadi, mənəvi-əxlaqi, fəlsəfi problemlərlə yanaşı insan və təbiət mövzusu, qarşılıqlı vəhdəti

istiqamətində əhəmiyyətli addımlar atılmışdır. “Əlvida, Gülsari” povestinin baş qəhrəmanı Tanabaydan başlanan yol “Gün var əsrə bərabər” romanında Yedigeylə Qazanqapla davam etdirilir və “Qiyamət” romanındakı Bostonla yekunlaşır...

1970-ci ildə “Novıy mir” (“Yeni dünya”) jurnalında həqiqi ədəbi nümunələrin alovlu müdafiəçisi kimi tanınan Aleksandr Prifonoviç Tvardovskinin redaktəsi ilə işıq üzü görən “Ağ gəmi” povesti ədəbi tənqid və ictimaiyyət tərəfindən birmənalı qarşılanmadı. Çingiz Aytmatov Tvardovskinin məsləhəti ilə povestin sonunu dəyişdirmişdi. Oğlan özünü öldürməmiş, üzüb çaya getmişdi. “Ağ gəmi” povesti Çingiz Aytmatovun ən sərt, kəskin formada yazılmış, “sosialist realizmi” yaradıcılıq metodunun prinsiplərinə qətiyyən uyğun gəlməyən əsərlərindən biridir. Povestdə qaldırılan problemlər bu gün də əhəmiyyətini itirməmişdir.

“Gün var əsrə bərabər” romanı Çingiz Aytmatovun yaradıcılığında və ümumən keçmiş Sovet ədəbiyyatında əhəmiyyətli yer tutur. Əsər yazıçının ilk romanıdır. “Gün var əsrə bərabər” romanında miflərdən, əfsanələrdən, rəvayətlərdən heyrət ediləcək dərəcədə düzgün şəkildə istifadə olunmuşdur. Çingiz Aytmatov min il əvvəl baş vermiş əhvalatları yaşadığı dövrün hadisələri ilə sıx əlaqələndirə, bağlaya bilmişdir. Yazıçının qənaətinə görə insanlar bir gündə “əsrə bərabər” işlər görməli, xeyirxahlıq, yaxşılıq etməlidirlər. Onda insan ömrünün qədir-qiyməti bilinir. İnsanın mənasız yerə ömür sürmədiyi aydın olur.

Yazıçının Sovet dövründə yazdığı son əsəri “Qiyamət” romanıdır. Çingiz Aytmatov sanki 60-80-ci illərdə yazdığı əsərlərində qaldırdığı problemlərə “Qiyamət” romanında yekun vurmuşdur. Bostonun, Ərnəzərin, Gülümkanın faciəsi əslində cəmiyyətin, sosial quruluşun, hakim ideologiyanın faciəsiydi. Çingiz Aytmatovun bütün əsərlərində cəmiyyətə, bəşəriyyətə, insanlığa xəbərdarlıq motivləri səsləndirilmişdi. Fikrimizcə, romanın “Qiyamət” və yaxud da “Cəllad kötüyü” adlandırılması təsadüfi deyildir. Yazıçının qənaətinə və gəldiyi nəticəyə görə bütün bəşəriyyət uçurumun astanasında, cəllad, edam kötüyünün qarşısındadır. İnsanlar birləşməli, və təcili, təxirəsalınmaz tədbirlər görməlidirlər. “Qiyamət” romanının və digər əsərlərinin yazıldığı vaxtdan bu günə qədər baş verən hadisələr inandırıcı şəkildə sübut etdi ki, böyük, cahanşümul sənətkar necə də haqlı, uzaqgörən və müdrik olmuşdur!

**ƏDƏBİYYAT**


1. Aytmatov Ç. Köşək gözü. Povestlər. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1965,250 s.
2. Çingiz Aytmatov – türk ruhunun qələbəsi.Bakı, 2013, “Nağıl Evi”, 284 səh.
3. Məmmədov F. “İnsan həm ovçudur, həm də şikardır” (Çingiz Aytmatovun əsərlərində faciəvilik). –Azərbaycan, N 9, s. 164-169.
4. Огнев В. «Неоконченный» человек. Вопросы литературы. 1982 №7 s. 161-171.
5. Шаблиовский Е. Слово о Чингизе Айтматове. Вопросы литературы. 1981 №8 s.196-210.